**MƏTANƏT XƏLİLOVA**
**Folklor İnstitutu**
**matanat-xalilova@mail.ru**

# AZƏRBAYCANIN TOY ADƏTLƏRİNİN FƏRQLƏNDİRİCİ XÜSUSIYYƏTLƏRİ

**Açar sözlər:** toy, adət, rəmz, məna, element, mərhələ, mədəniyyət
**Ключевые слова:** свадьба, традиция, символ, значение, элемент, этап, культура.
**Key words:** wedding, tradition, symbol, meaning, element, level, culture

Azərbaycanda toy adətləri - Azərbaycan mədəniyyətinin əsas tərkib hissələrindəndir. Əsrlər boyu Azərbaycanın müxtəlif tarixi bölgələrində inkişaf edərək vahid və zəngin bir adət sisteminə çevrilmişdir. Toy rəsmi nikah mərasimi olmaqla yanaşı bir-biri ilə bağlı təntənəli ənənələr (qız bəyənmə, elçilik, nişanlılıq dövrü, toy öncəsi adətlər, toy və s.) sistemidir. Milli toy adətlərində azərbaycan xalqına xas olan bütün müsbət xüsusiyyətlər öz əksini tapmışdır.

Azərbaycanın toy adət-ənənələri həm başqa xalqların adətlərinə təsir etmiş, həm də özü digər xalqların mədəniyyətindən müəyyən elementlər götürmüşdür. Toy adətlərinə zəmanənin də təsiri hiss edilməkdədir. Son dövrlərdə toyların bir qayda olaraq xüsusi şadlıq saraylarında təşkil edilməsi, bəy-gəlin rəqsinin hazırlanması, mələk libasında kiçik qızların bəy-gəlin ətrafında rəqs etməsi, toyda müasir rəqs üçün vaxt ayrılması, toyun sonunda gəlinin arxaya gül dəstəsi atması, bal ayının (deyim və adət XIX əsrdə digər xalqların mədəniyyətlərindən götürülmüşdür) keçirilməsi də bu qəbildəndir.

Toy Azərbaycan xalqının mədəniyyətində mühüm yerlərdən birini tutur. Bölgələrdən asılı olaraq müəyyən fərqliliklər olsa da, ümumi toy prinsipləri çoxdur və bir çox elementlərdən ibarətdir. Azərbaycan milli toy adətləri bir-biri ilə bağlı olan mütəşəkkil sistemdir.

Qədim el adətlərinə görə qızı ilk dəfə görən və evlənmək yaşında olan oğlan, qızı bəyənirsə, yaxın adamlarına bunu xəbər eləyir. Qızın yerini-yurdunu öyrənib xəbər tuturlar. Ailəsinin, atasının, anasının, bacı və qardaşlarının kimliyini öyrənirlər (1, 28). Ailəsi-kökü oğlan tərəfi razı salırsa oğlan qızla danışmağa və özü haqqında onda müsbət rəy yaratmağa çalışır. Sonra qızın valideynlərinin fikri öyrənilir. Bunun üçün qızın yaxın adamlarına – xalasına, bibisinə, anasına xəbər göndərir. Onların fikri öyrənilir (2, 44). Ümumiyyətlə "ara düzəltmə" işində vasitəçilərin böyük rolu olur. Bu şəxslər oğlan və qız tərəfə geniş məlumatlar verir, razılığa gəlmə prosesində mühüm rol oynayırlar.

Qədim dövrlərdən kənd yerlərində qızlar bulaq başında görülər, bəyənilərdi. Şəhərlərdə oğlan anaları gələcək gəlinlərini həftə hamamında seçər, gözü tutanı oğluna məsləhət görərdi. Oğlan da toyda-mağarda, məsləhət bilinəni görər, öz fikrini bildirərdi. Əksər hallarda onun fikri ilə ananın fikri üst-üstə düşərdi. Sonra xəbər göndərmə mərhələsi başlayardı. Həmçinin o dövrdə gələcək gəlinin sağlamlığına, iş görmək qabiliyyətinə mühüm üstünlük verilərdi.

Oğlan bəyənib-seçdiyi qızla evlənmək fikrinə düşdüyünü ata-anasına bildirdikdən sonra, oğlan evində qızın ailəsi haqda kifayət qədər məlumat yoxdursa, oğlan anasının, yaxud onun böyük bacısının (bir yaxın qohumu və ya bundan ötrü dəvət edilmiş ara arvadının iştirakı ilə) keçirdiyi elçilik qabağı qızgördüsünə gedirdilər.

Bu mərhələni həyata keçirən, evin qadınları olsalar da, prosesdə görünməz şəkildə kişilər də iştirak edirlər. Oğlan atası oğlanın anasına qız və onun yaxın qohum-qardaşı haqda lazımi məlumat toplamağı tapşırır. Bu tapşırıqdan sonra oğlanın yaxın qohumları müxtəlif yol və vasitələrlə qızın özü, valideynləri, nəsli-nəcabəti barədə müəyyən məlumat əldə etməyə çalışırlar. Bundan sonra oğlan evi qadınları qızın ailə üzvləri ilə yaxından görüb təmas qurmaq üçün onlar gedirlər. Bu "görüşə", bir adət olaraq, səhər tezdən və qəfildən gedilir ki, qız yuxudan oyanandan sonra üz-gözünə bəzək-düzək vurmasın. Oğlan evi qadınları qız qapısını döyüb yoldan keçən bir insan tək bəhanə ilə həyətə və evə daxil olurlar. İçəriyə daxil olan "qonaqlar" heç bir şeyi üzə vurmur, mətləbə dəxli olmayan müxtəlif söhbətlər edir, hər vasitə ilə əsas məqsədlərini gizlədirlər. Söhbət arası ev sahiblərindən qızına su gətizdirməyi xahiş edirlər. Bu zaman gözaltı qızın əl-ayağı, oturub durmağı, yerişi və zahiri görkəminə xüsusi diqqət yetirir, onu mütləq danışdırmağa çalışır, fürsət tapıb başına sığal çəkərək hörüyünün təbii, yoxsa süni olduğunu yoxlayır, bəzən isə bir bəhanə ilə qızın dodağından öpüb ağzında qoxu olub-olmadığını müəyyən edirlər. Uzaq keçmişdə görücülər bunlarla kifayətlənməyib qızın qulağının yaxşı eşidib-eşitməməsinə, gözünün nə dərəcədə görməsinə, əsəblərinin yerində olub-olmamasına fikir verirdilər. Qızın ev işlərini necə bildiyini öyrənməkdən ötrü, qəsdən mətbəx işlərindən söz açırdılar. Axırda qız evini tərk edən "Allah qonaqları" geyinən zaman qəfildən qızın ayağı altına kəlağayını salırdılar. Əgər bu kəlağayıya qədəm basmış qızın dabanları çatlaq, çirkli olurdusa, kəlağayının zərif ipək sapları mütləq büzülərdi. Bu da qızın özünə qulluq etməməsinə işarə idi. Sonra görücülər bəyənilmiş qızın anasma eyhamla: "Allah Sizə bir yaxşı yerdən qapı açsın" deyib sağollaşır və oğlangilə qayıdaraq bütün gördüklərini və öyrəndiklərini evdəkilərə danışırlar. Məsləhətləşib qızı almaq qərarına gəldikdə, ağbirçək bir qadın tapıb onu ağızaramaya göndərirdilər.

Bir vaxtlar qız evində böyümüş qızı ərə vermək niyyəti ilə onu evlənmə dəllalına (yengəyə) göstərmək adəti də bu adı daşımışdır. Evlənmək sahəsində peşəkar vasitəçiliklə məşğul olan bu qadınlar, adətən, hansı qıza hansı oğlanın uyğun olduğunu yaxşı bilirdi. Ayrı-ayrı bölgələrdə bu elçilikqabağı tədbirə "qızabaxdı / qızsaraflama", "qızgörümü / qızgörümcəyi", "görümcək / görəli", "görücügetmə / görücügəzmə", "didar", "bəlləmə" və s. də deyirlər. Oğlan evi arayıb-axtarıb qız evinə kim tərəfdən elçi gəldiyini qız evinə xəbər verməsi üçün münasib bir adam göndərir. Bəzən qız evi gələcək qohumluğa razılıq vermir. Onda elin-obanın ən mötəbər, hörmətli insanı qız evini razılığa gətirməyə çalışır. Adətə görə, əvvəl iki qadın – oğul anası və onun qohumlarından bir qadın ilk elçiliyə gedirlər. Qadınlar məsələni əvvəlcədən müzakirə etməyə və hazırlamağa çalışırlar. Onlar qızın, onun anasının qohumluğa razı olub-olmamasını öyrənər, bu məsələyə ailə başçısının da (atanın) fikrini öyrənməyi qız evindən xahiş edirlər. Ümumi razılıq əldə olunduqdan sonra nişan mərasiminin məsələləri həll edilər və böyük elçiliyə hazırlıq başlanır. Qadınlar razılığa gəldikdən sonra, oğlan və qız evinin ailə başçıları görüşürlər. Əgər oğlanın atası olmasa, onu oğlan tərəfin hörmətli kişi qohumu əvəz edir. Oğlan atası üç nəfər hörmətli şəxslə qız evinə gedir və elçi gedənlər öz hərəkətləri, davranışları ilə qız evinə elçiliyə gəldiklərini bildirirlər. Qız evinə gələn elçilər ilk dəfə hər şeyə dərindən fikir verirlər. Bu zaman elçilər qız anasının bacarığına, qonaqlara açılan süfrənin nizamına, evin səliqə-səhmanına göz qoyurlar, eyni zamanda özləri haqqında da həmin ailədə müsbət fikir yaratmağa çalışırlar (6, 76).

İnanclara və adətlərə görə elçiliyə gecə getməzlər. Baxmayaraq ki, müasir şəhərlərdə bu adət unudulub. Elçilərin qarşısına qoyulan çay razılıq alınmamış içilməz. Qız atası elə birinci elçilikdən razılığa gəlmir. O deməlidir: "Bir qızla, anası ilə, yaxın qohum-əqrəba ilə məsləhətləşim, sonra qəti fikrimizi sizə bildirərik". Qızın rəyi soruşulanda həmişə qız susar. Susmaqsa razılıq əlamətidir – deyərlər. Ancaq yenə qəti söz deməzdi. Çünki, əsas sözü böyüklər, ağsaqqallar deməli idi. Əgər kiçik elçilikdə ilkin razılıq artıq alınmışsa elçilər müsbət söz eşitməyə təkid etməlidirlər. Bu zaman ata qızın anasını çağıraraq hamının yanında bir də ucadan onun və qızın fikrini soruşar. Qadın isə adətə görə ata fikirinin əsas olduğunu deyərək susar. Ananın rəyi soruşularkən elçilər olan otağa qadınlar da daxil olurlar. Ananın sözündən sonra ata hamının yanında "Allah xoşbəxt eləsin" deməlidir. Bundan sonra şirin çay içilər və ortaya yemək gələr.

Elçilikdən bir müddət sonra hər iki tərəfin təyin etdiyi vaxtda qız evinə nişan gəlir. Buna oğlan tərəf çoxdan hazırlaşmış olur. Nişanda qız üçün lazım olan paltarlar, kosmetik vasitələr, ziynət əşyaları, şirniyyat və meyvə

xonçaları gətirirlər. Şirniyyat xonçalarına paxlava, şəkərbura və ən yaxşı konfetlər daxildir.

Bir neçə xonça isə çərəz və quru meyvələrdən düzəldilir. Nişan Novruz bayramı ərəfəsində olarsa, o zaman qız evinə xüsusi bəzədilmiş səməni də aparılır. Nişanda təkcə ayaqqabı gətirilmir, hesab edilir ki, ayaqqabı darlıqdır. Onu da ara günlərdə qayınana gəlinin yanına gələndə gətirir. Qıza nişanda alınan paltarlar adətən qırmızı rəngdə olur. Qara rəngdə heç nə alınmır.

Nişanda qız üçün zərif naxışlı qırmızı yaylıq gətirilir. Bu nişan mərasiminin ən önəmli atributlarından biridir. Nişanda bütün xərci çox vaxt oğlan evi çəkir. Süfrə üçün soğandan başqa bütün ərzaq göndərilir. Soğan acılıq hesab edilir, ona görə də qız evinə soğan göndərilmir. Oğlan evindən nişan qırmızı lentlə bəzədilmiş xonçalarda və çamadanlarda gətirilir.

Hələ qədim zamanlardan üzük əbədi sevgi rəmzi olmuşdur. Ona görə ki, üzük qapalı dairə formasındadır ki, bu da əbədi sabitliyi ifadə edir. Nişan üzüyü ənənəsi bəzi mənbələrə görə Misirdə, digər mənbələrə görə Qədim Yunanıstanda yaranıb. Hər iki mənbədə nişan üzüyü adsız barmağa taxılır. Bu da ürəyə aparan damarın məhz bu barmaqdan keçməsi ilə əlaqələndirilir. Qədim Yunanıstanda sol əlin adsız barmağında olan üzük onun sahibinin artıq sevgilisi olduğuna, çeçələ barmaqda olan üzük sahibinin hələ münasibət qurmağa hazır olmadığına, şəhadət barmağında olan üzük sahibinin özünə yar gəzdiyini, orta barmaqdakı üzük isə sahibinin sevgi məsələlərində tam təcrübəsiz və təzə olduğunu göstərirdi. Bu "Üzük dili" XIX əsrin sonlarına qədər davam etmişdir. Qədim Misirdə nişan üzüyünü sol əldə gəzdirirdilər. İndi də Şərq ölkələrində nişan üzüyü sol əldə gəzdirilir. Avropanın əksər ölkələrdə isə nişan üzüyü əvvəlcə sol ələ, toyda və toydan sonra isə sağ ələ taxılır. Hindistanda nişan əlaməti olaraq böyük barmaq da daxil olmaqla bütün barmaqlara bürcə uyğun simvolik daşlarla bəzədilmiş qızıl üzüklər taxılır. Hindistanda brilyant daşın mənfi enerji daşıdığına inanırlar və hesab edirlər ki, yalnız hədiyyə edildikdə brilyant bu mənfi xüsusiyyətini itirir.

Böyük nişan mərasiminin nişantaxdı toyu zamanı oğlan evindən qızgilə bəxtgüzgüsü adlanan güzgü gətirilir. O sonra gəlinapardı toyunda gəlin çırağı ilə yanaşı yolboyu qızın qabağında və ya sol tərəfində oğlan yengəsi, yaxud qız soldışının əlində gəzdirilir. Onun ətrafı qırmızı parça ilə haşiyələnir, hündürlüyü 60-65 sm, eni təqribən 40-45 sm-ə çatır. Güzgü əsas etibarilə, paltarkəsdi, xınayaxdı toyları və kəbinkəsdi mərasimində nişanlı qızın qarşısına qoyulur və hər tərəfində bir şam yandırılır. Ona baxan gəlin, guya gözdolusu "gələcək ağ günlərini" görür, güzgü onun önündə aparıldıqda isə "cəmi xəta-bəladan, bədnəzərdən" qorunur. El-oba inamına görə, suda və güzgüdə əks olunanlar, insanın oxşarı sayılır. Odur ki, bir vaxtlar bu "can və tale güzgüsü"nə baxdıqdan sonra hökmən onu öpmüşlər.

İndiki toylarda da ər evinə yollanan gəlin bəxt güzgüsünü öpüb onu oğlan yengəsinə tapşırır. Gərdək gecəsi, adət üzrə, bəy ilə gəlin bu güzgüyə eyni vaxtda baxmalıdırlar. Bəy ilə gəlinin güzgüyə birgə baxması onların həm bu güzgüdə, həm də gerçəkdə can-ruhlarının bir-birinə qovuşması, birləşməsi deməkdir. İnanclara görə toy günü güzgü sınarsa, evlənənlər tez bir zamanda ayrılar, ya da evlənənlərdən biri tezliklə ölər. Ona görə də bütün toylarda gəlin güzgüsü göz bəbəyi tək, ciddi-cəhdlə qorunur. Bu güzgü ayrı-ayrı yerlərdə "bəxt aynası", "gəlinlik güzgüsü", "nişan güzgüsü", "tale güzgüsü" də adlanır.

Toyun əsas atributlarından biri içində ayrı-ayrılıqda pal-paltar, zinət əşyaları və şirniyyat yerləşən bağlam – xonça gətirmədir. Boğçadan fərqli olaraq, onun əsasını dördbucaq şəkilli qalın parça, yaxud ağacdan yonulmuş tabaq və ya dəyirmi metal lövhə, bəzən qızılı məcməyi, sonralar isə naxışlı sini təşkil edir. Əşyalar oraya düzüldükdən sonra o, al qırmızı zərli saçaqlı və ya ala-bəzək ipək parça, yaxud tirmə şala bükülür. Ancaq örtüklərin dörd bucağı düyünlənməmiş qalın sap və ya sancaqla bənd edilir. Çox vaxt başlarda aparılan bu bağlamalar həm tərkibi, həm zahiri görünüşü, həm də ünvan sahiblərinə görə bir-birindən fərqlənirlər. Xonçaların böyüyünü evin və ya masanın ortasına qoyur, kiçik xonçaları isə, sayından asılı olaraq böyük xonçanın ətrafına düzürlər. Qaydaya görə, toy şənlikləri zamanı onların üstünə on ikidən artıq olmayan rəngarəng şamlar düzülür. Məlum olan ənənəvi yemək və paltar xonçalarının adları bunlardır: "ağxonça", "bayramxonçası", "bəy xonçası", "bəzəkxonçası", "çərşənbə xonçası", "gəlin xonçası", "qəndxonçası", "xınayaxdı xonçası", "nişan xonçası", "nübar xonçası", "sərpayı xonçası", "toy xonçası", "üzük xonçası", "yeddi lövün xonçası", "yengə xonçası" və sair.

Oğlan evində Novruz və digər xalq bayramları şərəfinə nişanlı qızlara aparılan və həmin qız evindən oğlan evinə gətirilən xüsusi bayram xonçasına "ağ xonça" deyirlər. Üstü qırmızı kəlağayı və ya saçaqlı tirməşalla örtülən bu xonçaya səməni qoyar, içində rəngli şamlar yandırarmışlar. Onun başqa adı "bayram yemişi", "görəlgə" və "novruzpayı"dır (6, 89).

Ərə verilən qıza ata evindən gündəlik həyat, ev-eşik üçün ən vacib sayılan əşyalar verilir. Əvvəllər qız evi bu əşyaları oğlan evindən aldığı başlığın hesabına əldə edirdi. İllər keçdikcə bu adətin forması və alınma mənbəyi dəyişikliyə məruz qalıb. Vaxtilə kasıb ailələrdə cehiz anasından qızına bir miras tək ötürülürdü. Qız doğulduğu gündən başlayaraq, anası öz cehizindən qalmış əşyaları və çatmayanları yenidən alaraq əlavə edilir, ayrıca bir sandığa yığırdı. El-oba qaydasına görə, ev əşyalarının çoxunu nişanlı qız özü hazırlayır, xalı, corab toxuyur, saatqabı, tənbəki kisəsi və s. tikirdi. Varlı ailələrdə isə cehizi tamamilə yenidən toplayardılar.

Toy öncəsi həyata keçən tədbirlərdən biri də xınayaxdıdır. Lənkəran toylarında qız toyu ərəfəsində keçirilən “Xınayaxdı” mərasimində bir sıra mahnılar ifa olunur; gəlinin ətrafına toplanmış qız-gəlinlər “Xınayaxdı”, “Əllərə xına yaxanlar”, “Aman nənə” kimi mahnıları oxuyardılar.

Kəbin kəsdirmə toy günündən bir neçə gün qabaq olur. XX əsrin əvvəllərinə qədər kəbini molla kəsirmiş. Bu mərasimdə hər iki tərəfdən iştirak edərlər. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra cəmiyyət tərəfindən nikahın dövlət tərəfindən qeyd olunması formasına üstünlük verildi. Kəbin kəsdirmə bəzi yerlərdə nişanlama mərasimi zamanı, digər yerlərdə paltarkəsdi toyundan sonra, çox vaxt isə elə toy günü həyata keçirilir. Bəzi bölgələrdə bu mərasimə biri oğlan, biri qız tərəfdən olmaqla iki molla dəvət edilərmiş. Kəbini hər mollanın kəsməsinə icazə verilməzmiş, bu, şəriətdən başı çıxan və nüfuzlu ruhani olmalı idi. Mərasimdə, oğlan və qız evindən gəlmiş iki vəkil, oğlan ilə qızın kəbinə razı olduqlarını molla yanında bildirib şərtlərini irəli sürürdülər. Müəyyən məsləhətləşmələrdən sonra tərəflər müəyyən məbləğə razılaşır, molla da şəriətin bütün qaydalarına əməl etməklə, “Fatihə-xeyir” kəbin duasını oxuyub nikahı kəsirdi. Mərasim qız evində keçirildikdə, buraya oğlan evindən bir neçə mötəbər kişi gələrdi. Onlar üçün xüsusi kəbin süfrəsi açırlarmış. Başqa bir otaqda nişanlı qızı üzü qibləyə gəlinlik taxtına oturdurlar, yerdəki ağ süfrənin yuxarıbaşına qızın bəxt güzgüsünü, onun hər böyrünə isə bir şamdan qoyub, bəy və gəlinin adına iki şam yandırırlar. Güzgü qarşısına bir ovuc buğda səpər, iynə sancılmış bir tirməşal üstünə süzənə dəsmalı çəkərlərmiş.

Kişi məclisində çay içildikdən sonra qudalar qonaqlar arasından iki "vəkil" seçir və ya başqa otaqdakı nişanlı qızın yanına adam göndərərək, onun özündən kimi vəkil seçdiyini öyrənirlərmişlər. Ardınca vəkillər həmin otağın qapısı ağzında dayanaraq, üç dəfə qızdan "filankəsə" ərə getməyə razı olub-olmamasını soruşurlar. Qız qapı arxasından “razıyam” deyir və hər iki vəkil yenə kişilərin məclisinə qayıdaraq, nişanlı qızın razı olduğunu bildirirlər. Burada oğlan evi ilə qız adamları arasında “kəbinpulu” ətrafında ənənəvi son danışıqlar aparılır. Tərəflər son razılığa gəldikdən sonra molla kəbini kəsir. Vəkillər: “Mübarək olsun, Allah xeyrə calasın” deyərək, kəbin kağızına qol atırlar. Oğlanın vəkili bu kağızı adaxlı oğlana aparıb ona da qol çəkdirir (onun imzası burada olmasa, toy günü qız evi gəlini vermir). Bundan sonra məclisdəkilərə oğlangildən gətirilmiş şərbət (onu bəzən “nikah suyu” adlandırırlar), yaxud şirin çay verirlər. Bəzi yerlərin adətinə görə, məclisə vəkil əvəzinə evlənən oğlanın özü gətirilir. Belə olduqda, molla üç dəfə qıza, yaxud onun vəkilinə verdiyi: “Filankəs oğlu filankəsi, ərliyə qəbul edirsənmi?” sualını adaxlı oğlana da verir (oğlandan qız haqda soruşur) və onun razılığını aldıqdan sonra nikahı qeyd edir. Kəbin duası oxunan zaman o biri otaqda bir qadın taxtda əyləşmiş nişanlı qızın başı üstə iki kəllə qəndi

bir-birinə sürtür ovuntuları qızın paltarına tökür. Bəzən bu vaxt oğlan adamlarından biri kağız vərəqini qayçı ilə kəsib doğrayır, bununla guya o, "havada uçub dolaşan bədxah ruhları" tikə-tikə parçalayır. Sonra bu kağız tikələrini yandıraraq, evlənənləri onun tüstüsünə tuturlar.

Çox təəssüf ki, bu gün Azərbaycan toy mərasiminin gedişində olduğu kimi, onun hazırlıq tərtibatında da könül açmayan yeniliklərə təsadüf olunur. Yaşlı nəslin yaddaşında qalan xatirələri, indiki toylarla müqayisə etdikdə çox adətlərimizin sıradan çıxdığına, xalqımızın gözəl rəqs melodiyaları, mahnıları əvəzinə, bayağı və yeknəsək ara mahnılarının, rəqslərinin, türk və xarici musiqisi nümunələrinin üstünlük etdiyinə təəssüflənməyə bilmərik. Professor Azad Nəbiyevin dediyi kimi: "Toy" möhkəm ailənin mirası kimi bizə gəlib çatan ən böyük mərasimlərimizdəndir... Əgər biz toyumuzun müqəddəs qayda-qanunlarının cavanlarımız tərəfindən pozulmazlığını təmin edə bilsək, təbii ki, yalnız öz ulu qaydalarımıza yeni həyat vermiş olarıq.

## Ədəbiyyat

1. Quliyev H. Azərbaycanda ailə məişətinin bəzi məsələləri (keçmiş və müasir dövr). Bakı, "Elm", 1986, 96 s.
2. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah. 1 hissə. Bakı, "Elm", 1994.
3. Paşayev Q. Seçilmiş əsərləri 7 cilddə, Bakı, "Təhsil", 2012, 680 s
4. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, "Elm", 1989.
5. Qədirzadə Q. Ailə və məişətlə bağlı adətlər inamlar, etnoqenetik əlaqələr. Bakı, "Elm", 2003.
6. Qaralov Z. Tərbiyə. II c. Bakı, "Pedaqogika", 2003, 304 s.
7. Göyüşov Z. Həzz və iztirab. Bakı, "Azərnəşr", 1969, 372 s.
8. http://qadinlar.biz/adetler/32750-azerbaycanda-toy-adetleri-qiz-gordu.html
9. https://news.day.az/society/256064.html
10. http://bizimtoy.az/az/toy-beledcisi/1846-elcilik
11. http://atc.az/forum/showthread.php?t=5957
12. http://bizimtoy.az/az/toy-beledcisi/1638-ag-xonca

**М.Халилова**

## Отличительные черты свадебных обычаев Азербайджана
## Резюме

В статье рассматриваются свадебные обычаи (выбор невесты, сватовство, помолвка, брачный договор, крашение хной), которые

являются неотъемлемой частью азербайджанской культуры, и их влияние на другие народы, а также присвоение определенных элементов из культуры других народов.

С древних времен до наших дней свадебные обычаи изучались шаг за шагом. В древние времена выбор невест у родника или в женской бани (хамам), участие аксакалов в сватовстве считались одной из главных церемоний. Процесс крашение хной проводится исключительно в обществе женщин и предсвадебной церемоний проходит брачный договор в присутствие муллы.

В статье также были изложены такие символы как колец, зеркала, хончы и др. которые являются основными атрибутами свадьбы,

**M.Khalilova**

**The distinctive features of wedding customs of Azerbaijan**

**Summary**

In the article the wedding customs (the choice of the bride, a courtship, the engagement, the marriage contract, henna party) which are the integral part of the Azerbaijani culture and their influence on other nations and also assignment of the certain elements from the culture of different nations are investigated.

From the ancient times up to now the wedding customs were studied step by step. In ancient times the choice of brides at the spring or in women's bath-houses, participation of elder persons of the generations in a courtship were considered as one of the main ceremonies. The process dyeing with henna is carried out only in the company of women and pre-wedding ceremonies there passes the marriage contract in presence of the mullah.

In the article it is also said about the symbols such as rings, a mirror, a khoncha (tray filled with different sweets and fruits, etc. brought to the bride on the day of betrothal), etc. which are the main attributes of a wedding.

**Rəyçi: Ağaverdi Xəlilov**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**